# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**EU4 INDEPENDENT MEDIA**



**İcra müddəti:** 03.01.2022 - 02.05.2025

**ŞT ölkələri:**

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Aİ-nin maliyyə yardımı:** € 7 999 610

**Ümumi büdcə:** € 7 999 610

**İcraçı təşkilat(lar):**

DT-Global leader of the consortium, WAN IFRA, The European Journalism Centre

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:**

**Layihənin təsviri:**

Şərq Tərəfdaşlığı ölkələrində fəaliyyətini davam etdirən müstəqil media, onu gəlirdən məhrum edən ədalətsiz rəqabət praktikası, siyasi müdaxilə və menecerlik bacarıqlarının yoxluğu ilə mübarizə aparır. Bu layihə Şərq Tərəfdaşlığı ölkələrində demokratikləşmə və vətəndaşların səlahiyyətləndirilməsi üçün Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukraynanın müstəqil media sektorunda jurnalistikanın keyfiyyətinin yüksəldilməsi məqsədinə xidmət etməlidir. EU4IM faktlara əsaslanan, gender inklüzivliyinə malik və ictimai marağa söykənən jurnalistikanı nəzarətçi roluna sahiblənməyə həvəsləndirir. Bu layihə medianın müqavimətliliyinin onun maliyyə davamlılığının gücləndirilməsi ilə artırılmasına töhfə verir. Bizim yanaşmamız belədir ki, əgər müstəqil media jurnalistləri yüksək keyfiyyətli, maraqlı materiallar hazırlamaq qabiliyyətinə malikdirlərsə, deməli media bazarında daha rəqabətli ola biləcəklər, bu isə etibarlı informasiyanın daha böyük həcmdə qəbuluna və nəticə olaraq daha böyük ictimai davamlılığa və hökumət hesabatlılığına gətirib çıxaracaq. Proqramın fəaliyyətlərinə material hazırlanmasının və ya menecment və marketinq bacarıqlarının gücləndirilməsi məqsədilə internet üzərindən və üzbəüz təlimlər, iş prosesində və fərdi qaydada mentor təlimləri, eləcə də yeni gəlir kanallarının inkişaf etdirilməsi, auditoriyanın daha yaxşı başa düşülməsi və zəruri texnoloji investisiyaların dəstəklənməsi daxildir. Bundan başqa regiondan olan iştirakçılara uyğun media fəaliyyətinin inkişafına dair araşdırma və hesabatlara çıxış verilməsi ilə materialın hazırlanması və təcili dəstək, habelə qarşılıqlı şəbəkələnmə də təklif olunur.

**Gözlənilən nəticələr:**

Nəticə 1: Şərq Qonşuluğu regionunda təhqiqat jurnalistikası da daxil faktlara əsaslanan yaxşı keyfiyyətli media məhsulunun artırılması.
Nəticə 2: Hədəflənən media qurumlarında təkmilləşdirilmiş faktyoxlama siyasəti də daxil daha çox peşəkar redaktə proseslərinə və jurnalistlərin daha keyfiyyətli reportaj hazırlamaq qabiliyyətinə nail olunması.
Nəticə 3: Media sektorunda daha təkmil gender bərabərliyinə və gender mövzusuna həssas reportaj hazırlanması qabiliyyətinə nail olunması.
Nəticə 4: Kommersiya mediası təlimlərində daha yaxşı təlimlənmiş redaksiya və menecment heyəti və daha şaxəli gəlir mənbələri.
Nəticə 5: Müstəqil jurnalistlərdən və peşəkar resurs və şəbəkə platforması kimi istifadə oluna biləcək media peşəkarlarından ibarət güclü şəbəkənin yaradılması.